**1.** Stolun üzərindəki dik duran qələmə ondan 150 sm uzaqlıqdan fənər tutulursa, qələmin arxasındakı divarda 48 sm uzunluğunda kölgəsi əmələ gəlir. Qələmin hündürlüyü 30 sm olarsa, qələm ilə kölgəsi arasındakı məsafəni tapın.




*(27 aprel 2025, DİM)*

**2.** $AB$ və $CD$ parçaları $E$ kəsişmə nöqtəsində yarıya bölünür və $BE : ED : AD = 6 : 4 : 9$ nisbətindədir. $ADE$ üçbucağının perimetri 38 olarsa, $CB$ parçasının uzunluğunu tapın.




*(20 aprel 2025, DİM)*

**3.** $EF \parallel AC$, $EF = FC = 3$, $AC = 9$ olarsa, $BF$-i tapın.




*(20 aprel 2025, DİM)*

**4.** Bərabərtərəfli $LMN$ üçbucağının sahəsi bərabərtərəfli $ABC$ üçbucağının sahəsindən 16 dəfə böyükdür. $P_{ABC} = 9$ olarsa, $LMN$ üçbucağının tərəfini tapın.

*(13 aprel 2025, DİM)*

**5.** $ABC$ düzbucaqlı üçbucağında $ED \perp AC$, $BC = 7{,}5$, $DE = 3$, $AE = 5$ və $AD = 4$ olarsa, $DC$ parçasının uzunluğunu tapın.




*(5 may 2024, DİM)*

**6.** $A(a; 2)$ və $B(0; b)$ nöqtələri $C(1; 0)$ nöqtəsinə nəzərən simmetrik olarsa, $a$ və $b$-nin qiymətini tapın.

A) $a = -3;\ b = 3$　　B) $a = 2;\ b = -2$

C) $a = 3;\ b = 2$　　D) $a = 1;\ b = -1$

E) $a = 0;\ b = 0$

*(21 aprel 2024, DİM)*

**7.** $MN$ və $EF$ parçaları $O$ nöqtəsində kəsişərək yarıya bölünür. $ME = 9\ sm$, $MN = 16\ sm$ və $EF = 10\ sm$ olarsa, $\Delta NFO$-nun perimetrini tapın.

A) 14 $sm$　　B) 22 $sm$　　C) 17 $sm$

D) 28 $sm$　　E) 13 $sm$




*(7 aprel 2024, DİM)*

**8.** $Ox$ oxuna nəzərən $M(-3;5)$ nöqtəsinə simmetrik olan nöqtənin koordinatlarını tapın.

A) $(3;5)$ B) $(5;-3)$ C) $(-3;-5)$
D) $(-5;3)$ E) $(3;-5)$

*(7 aprel 2024, DİM)*

**9.** $ABC$ üçbucağında $MN//AC$, $AC$=40, $CN$=18 və $BN$=12 olarsa, $MN$ parçasının uzunluğunu tapın.




*(17 mart 2024, DİM)*

**10.** $A(2;6)$ və $B(a;-3)$ nöqtələri $Oy$ oxuna paralel olan düz xətt üzərində olarsa, $a$-nın qiymətini hesablayın.

*(30 aprel 2023, DİM)*

**11.** $\angle B = 90°$, $\angle D = 90°$
$AE = 5, AD = 3, BC = 10$ olarsa, $DC$-nin uzunluğunu tapın.




*(30 aprel 2023, DİM)*

**12.** ABCD trapesiyasında $\angle ABC$=$\angle ACD$, BC=8, AD=32 olarsa, AC diaqonalının uzunluğunu tapın.




A) 20 B) 12 C) 15 D) 16 E) 18

*(16 aprel 2023, DİM)*

**13.** İki oxşar üçbucağın uyğun tərəfləri 12 və 16-sm dir. Birinci üçbucağın perimetri 60 sm olarsa, 2-ci üçbucağın perimetrini tapın.

A) 20 sm B) 160 sm C) 20 sm
D) 40 sm E) 80 sm

*(9 aprel 2023, DİM)*

**14.** $A(7;3)$ və $B(a;-2)$ nöqtələri $OY$ oxuna paralel olan düz xəttin üzərindədirsə, $a$-nı tapın.

A) 6 B) 7 C) −7 D) −2 E) 3

*(1 may 2022, DİM)*

**15.** Verilmiş üçbucaqda $MN \parallel AC, BN = 6\ sm$, $MN = 4\ sm, NC = 18\ sm$ olarsa, $AC$-i tapın.




*(1 may 2022, DİM)*

**16.** İki oxşar üçbucağın perimetrləri nisbəti $\frac{P_1}{P_2} = 7$ olarsa, onların tərəflərinin nisbətini tapın.

A) 49 B) 14 C) $\frac{1}{49}$

D) 7 E) 18

*(30 aprel 2022, DİM)*

**17.** Kvadratın tərəflərinin ortasını birləşdirməklə ikinci kvadrat alınmışdır. Bu kvadratların xaricinə çəkilmiş çevrələrin radiusları nisbətini tapın.

A) $2:1$ B) $3:2$ C) $\sqrt{2}:1$

D) $\sqrt{2}:2$ E) $\sqrt{3}:1$

*(24 aprel 2022, DİM)*

**18.** Verilmiş şəklə görə $DAM$ və $MCB$ bucaqları bərabərdir. $DM = 9$, $AM = 6$, $CM = 10$ olarsa, $BM$-in uzunluğunu tapın.




*(23 aprel 2022, DİM)*

**19.** Tərəfləri 1:2 nisbətində, perimetri 10 sm olan bərabəryanlı üçbucağın təpə nöqtəsindən oturacağa paralel düz xətt çəkilmişdir. Yan oturacağa bitişik bucaqdan bu düz xəttə qədər olan məsafəni tapın.

*(17 aprel 2022, DİM)*

Düzgün cavablar

1 (90) 2 (15) 3 (1,5) 4 (12) 5 (8,5)

6B 7B 8C 9 (16) 10 (2) 11 (9,5)

12D 13E 14B 15 (16) 16D 17C

18 (15) 19 ($\sqrt{15}$)